# RÜSTƏMOV MƏZAHİR İZZƏT OĞLU



Məzahir İzzət oğlu Rüstəmov 2 mart 1960-cı ildə Bakı şəhərində ziyalı ailəsində dünyaya gəlmişdir. 1977-ci ildə Nizami rayonundakı 32 saylı orta məktəbi əla qiymətlərlə bitirmişdir. 1978-ci ildə o, BDU-nun tarix fakültəsinin rus bölməsinə qəbul olunur. 1983-cü ildə təhsilini fərqlənmə diplomu ilə başa vurur. 1986-cı ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun fəlsəfə kafedrasında baş laborant vəzifəsində çalışmağa başlayır. Məzahir 1991-ci il martın 5-dən Dövlət Mətbuat Komitəsində (sonralar Mətbuat və İnformasiya Nazirliyi - red.) kitab ticarəti və xarici iqtisadi əlaqələr şöbəsində aparıcı mütəxəssis kimi fəaliyyətə başlayır. Erməni işğalçılarının törətdikləri qanlı toqquşma zamanı Məzahir 1992-ci il martın 23-də könüllü olaraq Milli Orduya yazılıb, Şınıxa gəlir. Şınıx bölgəsinin o zamankı mərkəzi olan doğma kəndi Düzrəsullu kəndində qərar tutur, vzvod komandiri vəzifəsinə təyin olunur. Sonra isə rota komandirinin müavini işləyir. 1992-ci il avqustun 6-da erməni quldurlarının xeyli canlı qüvvə və hərbi texnika ilə qəfildən Mutudərə kəndinə hücumu zamanı Məzahir öz cəsur döyüşçüləri ilə kəndin müdafiəsinə qalxır. Onlar dinc əhalinin kənddən çıxmasına şərait yaradırlar. Məzahir son nəfəsinə qədər döyüşür, ümid etdiyi əlavə kömək isə gəlib çatmır. Bu döyüşdə Məzahir qəhrəmancasına həlak olur; düşmən əlinə diri-diri düşməsin deyə, axırıncı qumbarası ilə özünü partladır. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Ailəli idi. Bir qızı yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı fərmanı ilə Rüstəmov Məzahir İzzət oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Oxuduğu Nizami rayonu 32 saylı məktəbə 1993-cü ildən Milli Qəhrəmanın adı verilib. Əhmədli qəsəbəsindəki küçələrdən biri onun adını daşıyır. Yaşadığı binaya xatirə lövhəsi vurulmuşdur. Gədəbəy rayonunda tuncdan abidəsi ucaldılmışdır.